

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 83 (21.235)

30 aprel 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 29-da Bakı Konqres Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva açılışda iştirak ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da "Rossiya-24" telekanalına müsahibə verib.

Dövlətimizin başçısı Böyük Vətən müharibəsində qələbənin 70 illiyi, Azərbaycanın energetika sahəsinin uğurlu inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Birinci Avropa Oyunlarına hazırlıq və digər məsələlərlə bağlı suallara cavab verib.

Sonda xatirə şəkli çəkdirilib.



# Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu

## Bu mövzuda Heydər Əliyev lektoriyalarının məşğələləri keçirilib



*Aprelin 29-da "Naxçıvan" Universitetində "Heydər Əliyev lektoriyası"nın "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda məşğələsi keçirilib.*

Tədbiri giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açıb. Qeyd edilib ki, dahi rəhbərin müstəqil Azərbaycanın gələcəyi naminə gördüyü nəhəng işlər Ona öz xalqının qəlbində əbədi yaşamaq hüququ qazandırıb. Dahi şəxsiyyət Heydər Əliyevin mənalı və şərəfli ömür yolu Vətənə və xalqa sədaqətlə xidmət etmək nümunəsidir. Rektor vurğulayıb ki, ulu öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində işğal və parçalanmaq təhlükəsi ilə üzbəüz qalmış Azərbaycanda müstəqil dövlət quruculuğu sahəsində fəaliyyəti ölçüyəgəlməzdir. Xalqımızın böyük oğlunun fədakarlığı və uzaqgörən siyasəti sayəsində mövcud problemlər aradan qaldırıldı və ölkəmizdə gələcək iqtisadi inkişaf üçün böyük zəmin yaradıldı. Ulu öndərin əsasını qoyduğu siyasətin davamlı və məqsədyönlü şəkildə həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan iqtisadi inkişafı və hərbi qüdrəti ilə regionun aparıcı dövlətinə çevrilib. Azərbaycanın hərtərəfli inkişafı isə onun dünya dövlətləri arasında olan nüfuzunun durmadan artmasına səbəb olub.

"Naxçıvan" Universitetinin tədris işləri üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda məruzə edərək bildirib ki, ölkəmizdə müstəqil dövlət quruculuğuna aparan yol məhz 1969-cu ildən sonra başlanıb. Bu dövrdən etibarən Azərbaycanda milli özünüdərkin, milli özünəqayıdışın əsasları qoyulub. Ulu öndərin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunədir.

Azərbaycan tarixində və xalqın yaddaşında görkəmli dövlət xadimi Heydər Əliyev müstəqil Azərbaycanın memarı, ən böyük azərbaycanlı kimi qalacaqdır. Xalqımızın müasir tarixində ümummilli lider bütöv bir epoxanı özündə təcəssüm etdirən, müstəqil dövlətin siyasi, iqtisadi, hüquqi, sosial-mədəni, elmi əsaslarını yaradan, onların ardıcıl inkişafını təmin edən siyasi kursun və milli inkişaf strategiyasının müəllifidir.

Qeyd olunub ki, 1993-cü ildən 2003-cü ilə qədər olan onillik müxtəlif təhdidləri və təhlükələri əhatə edirdi. Dahi rəhbər Heydər Əliyevin siyasi nüfuzu və zamanında qəbul etdiyi tarixi qərarlar Azərbaycanı real təhlükələrdən qorudu. Ulu öndərimizin müstəqil Azərbaycana rəhbərlik etdiyi onillik ölkəmizin həyatında çox zəruri olan ictimai-siyasi sabitliyin yaradılması, dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması kimi xarakterizə olunur. 1994-cü ildən etibarən iqtisadi inkişafın əsas prinsipləri formalaşdırıldı, müstəqil dövlətin neft strategiyası yaradıldı, bu strategiyanın əsası olan Əsrin müqaviləsi imzalandı, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təminində mühüm rol oynamağa başladı. Böyük İpək Yolu layihəsində fəal iştirak etməklə Azərbaycanın regional lojistik mərkəz kimi rolu və əhəmiyyəti artdı. Həyati əhəmiyyətli xarici siyasət modeli formalaşdırıldı, müasir və döyüş qabiliyyətli ordu yaradıldı.

Sonda ümummilli liderimizin həyatından və siyasi fəaliyyətindən bəhs edən slayd nümayiş etdirilib.

*Dünən Naxçıvan Dövlət Texniki Kollecində də "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib.*



Tədbiri giriş sözü ilə kollecin direktor əvəzi Asəf Ruşanov açıb. Bildirib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin çətin, məsuliyyətli, şərəfli və mənalı ömür yolu, zəngin ictimai-siyasi fəaliyyəti suveren Azərbaycanın bütün vətəndaşları üçün əsl həyat məktəbi, Vətənə, xalqa və dövlətçilik ideallarına sədaqət və məhəbbətin parlaq nümunəsidir. Qeyd olunub ki, ulu öndərin adı Azərbaycan xalqının rəmzinə, keçdiyi ömür yolu doğma torpağa məhəbbət və sədaqət meyarına çevrilib. Ömrünü xalqının nicatına həsr etmiş ümummilli liderimiz müasir Azərbaycan dövlətçiliyinin siyasi-ideoloji əsaslarını yaradıb, xalqı həqiqi müstəqilliyə qovuşduraraq ictimai şüurda əbədiyaşarlıq hüququ qazanıb.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu" mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, ulu öndər Heydər Əliyev dövləti böyük dövlətlərin cərgəsinə çıxaran görkəmli dövlət xadimi idi. O, ölkə həyatının bütün sahələrində quruculuğun, islahatların banisi olub. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəlişi, peşəkar ordunun yaradılması, səhiyyə, elm, təhsil, mədəniyyət və incəsənət sahələrinin tərəqqisi, hüquqi dövlət quruculuğu dahi rəhbərin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi Heydər Əliyevin xalqı və Vətəni qarşısında xidmətləri o qədər çoxdur ki, millət öz sevgisini Onu ümummilli lider adlandırmaqla ifadə etdi. Ümummilli liderimiz əbədiyaşar şəxsiyyətdir. Onun əməlləri, işıqlı ideyaları ölməzdir. Azərbaycan xalqı ona görə xoşbəxtdir ki, bu əməllər, bu ideyalar ulu öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkəmizdə aparılan iqtisadi və sosial islahatlar öz bəhrəsini verməkdədir. Bu gün muxtar respublikada görülən məqsədyönlü tədbirlər nəticəsində doğma diyarımız əsl intibah dövrünü yaşayır. Regionumuzun son illərdəki inkişaf tempi Heydər Əliyev ideyalarının bəhrəsidir.

# Ordubad rayonunda bələdiyyələrin fəaliyyəti ilə bağlı müşavirə

Aprelin 29-da keçirilən müşavirəni Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açıb. Qeyd olunub ki, son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərindən Ordubad rayonuna da xeyli pay düşüb, ayrı-ayrı yaşayış məntəqələrində tikilib istifadəyə verilən kənd mərkəzlərində yerli bələdiyyə orqanlarının normal fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev "Bələdiyyə orqanlarında qanunçuluğa əməl olunması və qarşıda duran vəzifələr" mövzusunda məruzə ilə çıxış edib.

Bildirilib ki, ümummilli liderin siyasi xəttinin layiqli davamçısı ölkə başçısı cənab İlham Əliyevin böyük əzmkarlıqla həyata keçirdiyi genişmiqyaslı islahatlar ölkəmizin sosial-iqtisadi inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyub. Eləcə də ölkəmizdə bələdiyyə fəaliyyətinin tənzimlənməsi məqsədilə geniş qanunvericilik bazası yaradılıb. Bu sahə ilə bağlı qəbul edilən qanunvericilik aktlarının düzgün tətbiq edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilir.



"Ötən dövr ərzində Ordubad rayonu üzrə hüquqi maarifləndirmə tədbirləri olaraq 16 seminar-müşavirə keçirilib", – deyən Ədliyyə naziri bildirib ki, bu cür seminar-müşavirələrin keçirilməsində məqsəd bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasından ibarət olub.

Ordubad rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2014-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 19 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib. Lakin nazirlik tərəfindən keçirilən bu qədər maarifləndirici tədbirlərə, verilmiş tövsiyə və təkliflərə baxmayaraq, rayon üzrə bələdiyyələrin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır.

"Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanunu inzibati nəzarəti həyata keçirən orqana mütləq təqdim olunan bələdiyyə aktlarının dairəsini müəyyən edir. Qanunun 6-cı maddəsinə əsasən, hər bir bələdiyyə qəbul etdiyi aktların bir surətini inzibati nəzarət qaydasında baxılması üçün həmin aktları qəbul etdikləri andan 15 gündən gec olmayaraq inzibati nəzarəti həyata keçirən orqana göndərməlidir. Bu sahədə bələdiyyələrin əksəriyyəti qanunvericiliyin tələblərini pozurlar. Bütün bunların nəticəsidir ki, son 5 ildə 42 bələdiyyə sədri haqqında inzibati xəta protokolu tərtib edilərək tədbir görülməsi üçün məhkəmələrə göndərilib. Gələcəkdə də belə hallara yol verən bələdiyyələr haqqında tədbirlərin görülməsi davam etdiriləcəkdir.

Nazir deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğı nəticəsində aparılan hərtərəfli abadlıq və quruculuq işləri çərçivəsində muxtar respublika bələdiyyələrinin müasir iş şəraiti ilə təmin edilməsi daim diqqət mərkəzində saxlanılıb. Həmçinin ötən il bələdiyyələr sırasından işində fərqlənən, seçilən, işgüzar 8 nəfər bələdiyyə sədri Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunub. Göründüyü kimi, bələdiyyə sahəsinin inkişafı daim diqqətdə saxlanılır. Bu da, öz növbəsində, inkişafa stimul verməklə bu sahənin uğurlarını artırmalıdır. Bu isə bələdiyyələrin birbaşa fəaliyyətindən asılıdır. Ümumilikdə, bələdiyyələrin yerli əhalinin maraqlarını təmin etmək və bu sahədə səmərəli işləmələri üçün dövlətimiz tərəfindən hər cür şərait yaradılıb. Məhz bu diqqət və qayğının müqabilində bələdiyyələr üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

*Azərbaycanın özü qədər əbədi*

# Ulu öndər Heydər Əliyevin iqtisadi siyasəti dinamik inkişafın qarantıdır

***Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə digər sahələr kimi, iqtisadiyyat da inkişaf etdirilmişdir. Sovet hakimiyyəti dövründə respublikamızı bütün sahələrdə öncül yerlərdən birinə çıxaran ulu öndər ölkəmizin dövlət müstəqilliyi üçün təməl yaratmış, sonrakı hakimiyyəti dövründə öz xalqının inkişaf yolunu müəyyən etmişdir.***



Azərbaycanın neft-qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, ölkə iqtisadiyyatında uzun müddət aparıcı sahə olan neft-qaz sənayesi onun ümumi inkişaf səviyyəsinə birtərəfli təsir göstərmişdir. Bu sahə ümumi kapital qoyuluşunun çox hissəsini təşkil etməklə iqtisadiyyatın başqa sahələrinin inkişafını xeyli məhdudlaşdırırdı. Yüksək gəlir verən neft sənayesinin inkişafından əldə edilən böyük mənfəətin istifadəçisi olan keçmiş ittifaq hökumətinin digər təbii sərvətlərin mənimsənilməsi üçün lazım olan vəsaiti ayırmaması Azərbaycan iqtisadiyyatının hərtərəfli inkişafına mənfi təsir göstərirdi. Beləcə, Azərbaycan xalqı öz sərvətlərindən istədiyi səviyyədə istifadə etmək səlahiyyətinə malik deyildi və xalqımızın öz milli iqtisadiyyatını səmərəli inkişaf etdirmək hüququ yox idi. Ona görə də uzun müddət Azərbaycan iqtisadiyyatında birtərəfli inkişaf getmiş və bu, çoxlu sosial problemlərin yaranması ilə nəticələnmişdi. Ötən əsrin 50-60-cı illərində Sovet İttifaqının başqa regionlarında zəngin neft ehtiyatlarının aşkara çıxarılması və istifadəsi ilə əlaqədar olaraq, Azərbaycan neftinə maraq xeyli azalmış və bütövlükdə, iqtisadiyyatın artım sürəti zəifləməyə başlamışdır.

Belə bir zamanda yaranmış vəziyyəti aradan qaldırmaqla respublikanın böyük daxili potensialının aşkara çıxarılması və ondan istifadə əsasında iqtisadiyyatın daha sürətlə inkişaf etdirilməsi, uzun illərdən bəri yığılıb qalmış sosial və iqtisadi problemlərin həll edilməsi tələb olunurdu. Maliyyə vəsaiti çatışmazlığı problemlərini həll etmək, əsaslı vəsait qoyuluşunu artırmaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaqla yeni sənaye sahələri yaratmaq başlıca vəzifələr hesab olunurdu. Ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi hər şeyi kökündən dəyişmiş, Azərbaycan özünün yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün regionlarda canlanma vaş vermişdir. Ulu öndər Heydər Əliyev öz məqsədyönlü fəaliyyəti ilə Azərbaycanı zamanın ən çətin sınaqlarından çıxararaq bütün istiqamətlərdə yüksəlişə nail olmuşdur. Həmin dövrdə Azərbaycan rəhbərinin təkidi ilə SSRİ hökuməti respublika xalq təsərrüfatının bütövlükdə və onun ayrı-ayrı sahələrinin inkişafını nəzərdə tutan, Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edən beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan SSR-in sosial-iqtisadi inkişafının bütün əsas məsələlərini əks etdirən bu qərarların həyata keçirilməsi nəticəsində 1970-1985-ci illərdə Azərbaycan sürətli inkişaf yoluna qədəm qoymuş və çox böyük istehsal potensialı yaradılmışdır. Ona görə də bu dövr dəyişikliklərin miqyasına və iqtisadi artımın bütün əsas göstəricilərinin yüksək olmasına görə Azərbaycan iqtisadiyyatının inkişafı tarixinin çox mühüm və xüsusi mərhələsini təşkil edir.

Bu illər ərzində xalq təsərrüfatına bütün mənbələr hesabına 32 milyard rubl sərmayə qoyulmuş və Azərbaycan bir çox məhsulların istehsalına görə keçmiş ittifaqda mühüm yer tutmuşdur. İqtisadiyyatın aparıcı sahəsi olan sənayedə mütərəqqi struktur dəyişikliklərinin aparılması, yeni və texnoloji cəhətdən təmin olunmuş müəssisələrin yaradılması nəticəsində yüksək uğurlar əldə olunmuş, məhsul istehsalı artmış, əhalinin sosial vəziyyəti yaxşılaşdırılmışdır. Keçmiş ittifaqda sənayedə əmək məhsuldarlığının artımına görə 14-cü yerdə duran Azərbaycan az bir zamanda birinci yerə yüksəlmişdir.

Sovet İttifaqının süqutundan sonra yenicə müstəqillik əldə etmiş ölkəmizə erməni təcavüzü və ərazimizin 20 faizinin işğal edilməsi, iqtisadi əlaqələrin pozulması, böyük işsizlər ordusunun yaranması ilə respublikamızda sosial gərginlik artmışdır. Müstəqilliyin ilk illərində xalq təsərrüfatı sahələrinin qeyri-mütənasib inkişafı, sosializm sistemindən bazar iqtisadiyyatına keçidin qeyri-peşəkar aparılması ciddi sosial-iqtisadi, maliyyə problemlərinə yol açmış, iqtisadi tənəzzül sürətlənərək inflyasiya xeyli yüksəlmişdir. Bütün bunların və bir sıra digər amillərin mənfi təsiri nəticəsində respublikamızın aqrar bölməsini də tənəzzül bürümüşdür. 1985-ci ilə nisbətən 1993-cü ildə bütün əkin sahələrinin 12 faiz, bütün növdən olan ət istehsalının isə 2,2 dəfə azalması ölkədə ərzaq qıtlığı yaratmışdı. Bu dövrdə ölkədəki xaos və anarxiya, ədalətsiz müharibə və qeyri-müəyyənlik Azərbaycandakı zəngin karbohidrogen ehtiyatlarında maraqlı olan nəhəng dövlətlərin və şirkətlərin təhlükəli region kimi ölkəmizə investisiya qoymasına imkan vermirdi.

1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gələn ümummilli lider Heydər Əliyev güclü iqtisadi siyasətin əsasını qoymuşdur. Gələcək iqtisadi inkişafa hesablanmış iqtisadi islahatların həyata keçirilməsi nəticəsində 1993-cü ildən etibarən dirçəliş dövrü başlanmış, respublikada görülən təxirəsalınmaz tədbirlər nəticəsində iqtisadiyyatda tənəzzülün qarşısı alınmış, ümumi daxili məhsul istehsalı ilbəil artmağa başlamış, iqtisadi artım sürəti MDB üzrə orta göstəriciləri ötüb keçmişdir.

1994-cü il sentyabrın 20-də çox böyük siyasi və iqtisadi əhəmiyyəti olan Əsrin müqaviləsinin imzalanması ilə ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyulmuşdur. Ölkə üçün həyati əhəmiyyəti olan bu müqavilə respublikanın daxilində sabitliyin bərqərar olunmasında, xarici siyasətdə uğurların əldə edilməsində müstəsna rol oynayaraq Azərbaycanı dünya miqyasında tanıtmışdır. Böyük dövlətlərin yaxın tərəfdaşına çevrilən Azərbaycanda investisiya mühitinin formalaşması ilə ölkəmizə xarici investisiya axını cəlb olunmuşdur. Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı ulu öndər Heydər Əliyev qısa bir zamanda iqtisadi yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirmişdir. 1994-2000-ci illərdə ölkəyə 5,5 milyard dollar xarici investisiyanın daxil olması nəticəsində sənaye, tikinti, nəqliyyat, xidmət sahələrində canlanma baş vermiş və Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafının sürətləndirilməsinə geniş imkanlar açılmışdır. Xarici iş adamları üçün əlverişli biznes mühitinə təminat verilərək 2000-ci ildə 123 ölkə ilə ticarət əlaqəsi qurulmuş, xarici ticarət dövriyyəsinin həcmi 3,9 milyard manata çatdırılmışdır.

İqtisadi böhrandan əsas çıxış yolunu dövlət mülkiyyətinin özəlləşdirilməsində görən dahi şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətlərindən biri də 1995-ci il iyulun 30-da “Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Dövlət Proqramı”nın təsdiq olunması ilə ölkədə sosial-iqtisadi tərəqqini təmin edəcək sahibkarlıq mexanizminin əsasının qoyulmasıdır. Ölkədə özəlləşdirmə proqramının həyata keçirilməsi azad sahibkarlığın, şəxsi təşəbbüskarlığın inkişafını sürətləndirmiş və təkcə 1998-ci ildə 800-dən çox orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətlərə çevrilmişdir.

Aparılan islahatların məntiqi davamı kimi, kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində idi. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə əsasını qoyduğu torpaq islahatlarının müsbət nəticələrinə əsaslanaraq “Torpaq islahatı haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə kəndlini sahibkar etmək, torpağı əsl mülkiyyətçisinə vermək hədəflənərək şəxsi mülkiyyətə söykənən sahibkarlığın əsası qoyulmuş və 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrilmişdir.

Enerji daşıyıcılarını dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan neft kəməri, qaz ehtiyatlarının Qərb bazarına ixracını təmin edən Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin reallaşması Azərbaycanı tranzit ölkəyə və mühüm strateji partnyora çevirmişdir.

1993-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1 faiz, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə artmış, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəldilmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçmişdir.

2003-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş və Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanın yeni bir inkişaf dövrünün başlanğıcını qoymuşdur. 2003-cü ildən sonra mühüm iqtisadi əhəmiyyəti olan tədbirlərin gerçəkləşdirilməsi ilə yanaşı, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının təmin olunması üçün 3 böyük dövlət proqramı qəbul edilmiş, dünyanın ən inkişaf etmiş dövlətləri sırasına daxil olmağı qarşısına məqsəd qoyan Azərbaycanda innovativ istiqamətdə sosial-iqtisadi inkişaf təmin olunmuşdur. 2003-2014-cü illər ərzində Azərbaycanda bütün sahələrdə böyük tərəqqi baş vermiş, ümumi daxili məhsul 3,5 dəfə artmış, ölkə iqtisadiyyatına 150 milyard dollardan çox investisiya qoyulmuş, xarici ticarət dövriyyəsi 6,4 dəfə, qeyri-neft sektoru isə 2,7 dəfə artmışdır. Ölkənin strateji valyuta ehtiyatları 30 dəfə artaraq 50 milyard dolları keçmişdir. Bu dövrdə yoxsulluğun səviyyəsi 6 faizə, işsizliyin səviyyəsi isə 5,2 faizə qədər azalmışdır. Azərbaycanda bütün sahələrdə yaşanan inkişaf özünü, ilk növbədə, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasında, onların sosial müdafiəsinin daha da gücləndirilməsində göstərmişdir.

Naxçıvan Muxtar Respublikasına xüsusi diqqət göstərən ulu öndərimiz Heydər Əliyev hakimiyyətdə olduğu dövrlərdə muxtar respublikanın inkişafını təmin etmək üçün ciddi tədbirlər həyata keçirmişdir.

Muxtar respublikamızın sosial-iqtisadi inkişaf sahəsində qazandığı böyük nailiyyətlər ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması ümumi daxili məhsulun tərkibində sənayenin ilk yerə sahib olmasına şərait yaratmış və onun məhsulunun həcmi kənd təsərrüfatı məhsulunun həcmini 2,6 dəfə üstələmişdir. 2014-cü ildə ümumi daxili məhsulun həcmi 1995-ci ilə nisbətən 55 dəfə, sənaye məhsulunun həcmi 98 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 9 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 110 dəfə, ixracın həcmi 211 dəfə, əhalinin gəlirləri isə 56 dəfə artmışdır.

Blokada şəraitində yaşayan muxtar respublikamızda son 20 il ərzində qarşıya qoyulan strateji məqsədlərin reallaşdırılması nəticəsində bu gün Naxçıvan Azərbaycanın həm iqtisadi, həm siyasi, həm də mədəni mərkəzinə çevrilməklə novator region olmuşdur.

*Bünövrəsi ulu öndərimiz tərəfindən qoyulan iqtisadi islahatların qısa zaman ərzində verdiyi çoxsaylı müsbət nəticələr bir daha dövlətimizin əzmlə həyata keçirdiyi iqtisadi siyasətin düzgünlüyünü sübut edərək dünyanın ən inkişaf etmiş ölkələri sırasına daxil olmaq üçün geniş yollar açır.*

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

# Kənd təsərrüfatının siyahıya alınması mühüm dövlət tədbiridir

***Naxçıvan Muxtar Respublikasında son illər ərzində iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm işlər görülmüş, yeni istehsal və xidmət sahələri yaradılmış, iş yerləri açılmış, əhalinin həyat səviyyəsi yaxşılaşdırılmış, bütün sahələr üzrə dinamik inkişaf təmin edilmişdir.***

Muxtar respublikanın iqtisadiyyatında mühüm yer tutan kənd təsərrüfatı sahəsinin inkişafı da ötən dövr ərzində diqqətdə saxlanılmışdır. Aparılan məqsədyönlü tədbirlər nəticəsində aqrar sahədə dinamik inkişaf təmin edilmiş, məhsul istehsalının artırılmasına nail olunmuşdur.

Aparılmış aqrar islahatlarla yanaşı, kənd təsərrüfatının inkişafı istiqamətində qəbul edilmiş dövlət proqramları, o cümlədən 2005-2010-cu illəri əhatə edən Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə, 2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair və 2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası bu sahənin dinamik inkişafını təmin etmişdir. Kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların verilməsi, onların lazımi texnika və gübrələrlə vaxtında, güzəştli şərtlərlə təminatı istehsalın artımı üçün böyük stimul yaratmışdır.

Aparılmış məqsədyönlü tədbirlər kənd təsərrüfatı məhsulunun ümumi həcminin artımına təsir göstərmiş, 2014-cü ildə muxtar respublikada 355 milyon 157 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2004-cü ildəki müvafiq göstəricidən 4,6 dəfə çoxdur.

Aqrar sahənin gələcək inkişafını təmin etmək üçün etibarlı informasiya bazasının yaradılması vacib şərtdir. Kənd təsərrüfatında baş verən proseslər və inkişaf göstəriciləri haqqında aktual məlumatların əldə edilməsi və dəqiq statistik uçotun aparılmasında kənd təsərrüfatı siyahıya alınmasının əhəmiyyəti böyükdür.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) kənd təsərrüfatı siyahıya alınmasının hər 10 ildən bir keçirilməsini tövsiyə edir. Təşkilatın üzvü olan əksər ölkələrdə, o cümlədən Azərbaycan Respublikasında da siyahıyaalma hər 10 ildən bir keçirilir.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının ümumi siyahıya alınması ilk dəfə olaraq 2005-ci ilin iyun ayında keçirilmiş və bu sahə üzrə müvafiq məlumat bazası yaradılmışdır.

Kənd təsərrüfatının və kənd təsərrüfatına xidmət edən sahələrin inkişafını nəzərə alaraq bu sahənin dinamikası, strukturu, inkişaf meyilləri, maddi-texniki bazası haqqında ətraflı məlumatların əldə edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin 2014-cü il 22 fevral tarixli 26 nömrəli Qərarına əsasən, 2015-ci il iyun ayının 1-dən 30-dək muxtar respublikada kənd təsərrüfatının siyahıya alınması keçiriləcəkdir.

Kənd təsərrüfatı siyahıya alınması zamanı kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan bütün təsərrüfatların iki qrup üzrə sorğuya cəlb edilməsi nəzərdə tutulmuşdur. Birinci qrup üzrə sorğu kənd təsərrüfatı müəssisələrini və təşkilatlarını, ikinci qrup üzrə isə sorğu fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarını əhatə edəcəkdir. Siyahıyaalma zamanı təsərrüfatların mənsubiyyəti, gəlir mənbəyi, icarə münasibətləri və torpaqdan istifadə, kənd təsərrüfatı bitkilərinin əkin sahələri, çoxillik əkmələrin növləri üzrə ağac və kolların sayı, mineral və üzvi gübrələrdən istifadə, tətbiq edilən suvarma üsulları, mal-qara və quşların cins və yaş tərkibinə görə mövcudluğu, göl və nohur balıqçılığı, kənd təsərrüfatı məhsullarının emalı üçün avadanlıqlar, bina və tikililərin, kənd təsərrüfatı texnikası və avadanlıqlarının mövcudluğu, kənd təsərrüfatında işçi qüvvəsi haqqında məlumatların toplanılması nəzərdə tutulmuşdur.

Muxtar respublikada digər sahələrlə yanaşı, aqrar sahə də hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur. “Kənd təsərrüfatı ili” elan edilmiş 2015-ci ildə keçiriləcək siyahıyaalmada əldə ediləcək dolğun məlumatlar bu sahənin gələcək inkişafı üzrə aparılacaq tədbirlərin istiqamətinin müəyyənləşdirilməsinə imkan yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi***

# Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransının (CORLEAP) 5-ci illik yığıncağı keçirilmişdir

*Aprelin 22 və 23-də Belçikanın paytaxtı Brüssel şəhərində Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri Konfransının (CORLEAP) 5-ci illik yığıncağı keçirilmişdir. Qurumun büro üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov tədbirdə iştirak etmişdir.*



Yığıncaqda Avropa Birliyi-Şərq tərəfdaşları dövlət və hökumət başçılarının 2015-ci il 21-22 may tarixlərində Latviyanın paytaxtı Riqa şəhərində keçiriləcək sammitinə siyasi tövsiyələrin hazırlanaraq ünvanlanması və bir sıra digər məsələlər müzakirə olunmuşdur. Siyasi tövsiyələrin ilkin variantı ölkəmizin maraqlarına tam cavab vermədiyi üçün Azərbaycan tərəfindən sənədə 14 düzəliş və əlavə təqdim edilmişdir. Əlavələrdə bütün tərəfdaş dövlətlərin ərazi bütövlüyünün açıq və ardıcıl şəkildə dəstəklənməsi, fundamental hüquqların, beynəlxalq hüququn və Avropa dəyərlərindəki digər hüquqların təmin edilməsi, Azərbaycanın Avropa Birliyi ilə Assosiasiya sazişi imzalamadığı üçün ikitərəfli strateji tərəfdaşlıq təklifi, həmçinin Avropa Birliyinin bütün səlahiyyətli orqanlarının münaqişələrin həllinə dəstək verərək müvəqqəti köçkünlərin vətənlərinə qayıtması və yerli idarəçilik hüquqlarının bərpası üçün səylərin artırılmasına çağırış barədə müddəalar irəli sürülmüşdür.

Yığıncaqda Azərbaycan tərəfinin bütün təklifləri qəbul olunmuş və siyasi tövsiyələrdə ölkəmizin maraqlarına uyğun əlavə və dəyişikliklər edilmişdir.

Siyasi tövsiyələrə əlavə və düzəlişlər edilməsi barədə Moldova, Polşa, Danimarka və Ermənistan tərəfindən də təkliflər irəli sürülmüşdür. Ermənistan heyətinin təklifi ərazi bütövlüyü, müvəqqəti köçkünlərlə bağlı müddəaların sənəddən çıxarılması ilə bağlı olmuşdur. Azərbaycan tərəfinin etirazından sonra bu təkliflər qəbul edilməmişdir. Ermənistan tərəfi ikinci cəhdində isə ərazi bütövlüyü barədə müddəaları yumşaltmaq məqsədi ilə sənədə “xalqların öz müqəddəratlarının sərbəst təyin edilməsi” ifadəsinin əlavə olunmasına çalışmışdır. Lakin yenidən Azərbaycan tərəfinin etirazı və izahatlarından sonra bu təklif də qəbul olunmamışdır.

Şərq Tərəfdaşlığının Regional və Yerli Orqanları Konfransının 5-ci illik yığıncağında “erməni soyqırımı” məsələləri ətrafında da çıxışlar olmuşdur. Yığıncaqda bu məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə hazırlanmış bəyanat səsləndirilmişdir. Bəyanat qondarma soyqırımın əsl mahiyyətinin və bu məsələ ilə bağlı Azərbaycan tərəfinin mövqeyinin yığıncaq iştirakçılarına çatdırılması baxımından əhəmiyyətli olmuşdur. Bəyanatda qondarma erməni soyqırımı ilə bağlı bu il aprelin 15-də Avropa Parlamenti tərəfindən qəbul edilmiş qətnaməyə etiraz bildirilmiş, bu addım demokratik dəyərlərə zidd, heç bir siyasi və hüquqi əhəmiyyət daşımayan hərəkət kimi qiymətləndirilmişdir.

Sonra yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, qurumun bürosunda təmsil olunan Anar İbrahimov 2015-ci il oktyabrın 1-dən başlayaraq bir il müddətinə Şərq Tərəfdaşlığının Regional və Yerli Hakimiyyətləri bürosunun həmsədri seçilmişdir. Qurumun digər həmsədri səlahiyyətlərini isə Avropa Birliyinin Regionlar Komitəsinin prezidenti, finlandiyalı Makka Makkula həyata keçirəcəkdir.

Yığıncaqda gündəlikdə duran digər məsələlər də müzakirə edilmişdir. Belə ki, müzakirələr zamanı ölkəmizdə elektron hökumətin qurulması, iqtisadi artım, regionların inkişafı, infrastrukturun müasirləşdirilməsi, Naxçıvan Muxtar Respublikasının dayanıqlı sosial-iqtisadi inkişafına yönəldilən layihələr, əhalinin elektron xidmətlərə çıxışı barədə məlumatları əks etdirən çıxışlar dinlənilmişdir. Xüsusilə muxtar respublikada həyata keçirilən “Kənd mərkəzləri” layihəsi iştirakçılarda böyük maraq doğurmuş və bu layihə yerlərdə dayanıqlı inkişafın təmin edilməsi və əhalinin keyfiyyətli sosial xidmətlərə çıxış imkanının artırılması sahəsində yaxşı praktika kimi dəyərləndirilmişdir.

**“Şərq qapısı”**

*Naxçıvan xarici mediada*

## Naxçıvandakı Əlincəqala





Əlincəqala Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda Əlincəçayın sağ sahilində yerləşir. Qədim mənbələrdə “Erincaq”, “Ericnik”, “Alancik”, “Alınca”, “Alancuq” və sair kimi qeyd olunur. Bəsrəd Paşayevə görə, Əlincəqalanın adını tədqiqatçılar və jurnalistlər qədim türk dilində “düzənlik” mənasında işlədilən “alan” sözü ilə bağlayırlar. Bu, qalanın yerləşdiyi sahənin kiçik meydançaya bənzəməsi ilə əlaqədardır. Əlincəqalanın tikilmə tarixi haqqında müxtəlif versiyalar var. İspan diplomatı, Kastiliya kralı III Enrikonun 1403-1406-cı illərdə Teymurilər dövlətindəki səfiri Rüi Qonsales Klavixo Əlincəqalanı belə təsvir etmişdir: “Əlincəqala yüksək və sıldırım bir dağ üzərində qərar tutaraq divar və bürclərlə əhatə olunmuşdur. Divarların daxilində dağ yamaclarının aşağı tərəflərində üzümlüklər, bağlar, zəmilər, otlaqlar, bulaqlar və hovuzlar vardır”.

Qədim tarixi mənbələrə görə, qala 2 min il əvvəl tikilmişdir. Digər tarixçilər sübut edir ki, qala III-IV əsrlərdə Sasani dövlətinin vaxtında tikilib. Orta əsr qaynaqlarında Əlincəqala möhkəm istehkam, dağ, çay kimi nəzərdə tutulmuşdur. Əlincəqala haqqında tarixçilərdən Asogik (928-1019), Şərafəddin Əli Yəzdi (XV əsr), türk səyyahı Övliya Çələbi (XVII əsr) və başqaları məlumat vermişlər. Əlincəqalanın qeyri-adi mənzərəsi çoxlu əcnəbi qonaqları buraya cəlb edir. Bu qala güc və hərbi strategiya rəmzi olaraq əsrlərboyu geosiyasi əhəmiyyətli qala olmuşdur. Əlincəqalanın divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qalanın qədim bəndi ətraf kəndlərdən gətirilmiş iri daşlardan və bişmiş kərpicdən hörülmüşdür. Şimal yamacında yarımdairəvi bürcləri olan üç divarın, qərb yamacında isə səkkiz divarın xarabalıqları qalmışdır. Xanəgah kəndindən qalaya gələn yolun üzərində gözətçi evi, xəndəklər və müdafiə məqsədi üçün qüllələr inşa edilmişdir. Əlincəqala, əsasən, üç geniş sahədən (şimal, şimal-qərb və cənub-qərb) ibarətdir; şimal sahəsindən şimal-qərb və cənub-qərb sahələrinə qalxmaq üçün daş pillələr qoyulmuşdur. Qalanın möhkəm divarları və qayanın sıldırım olması onu sarsılmaz müdafiə istehkamına çevirmişdir. Qalanın kiçik şəhərciyi xatırladan yuxarı hissəsində bişmiş kərpicdən tikilmiş çoxlu yaşayış və ictimai binaların xarabalıqları və bünövrə daşları nəzərə çarpır. Qala rəislərinin və iri feodalların yaşamış olduğu bu sahə “şahtaxtı” adlanır. Əlincəqalada feodallara məxsus gözəl saray və binaların qalıqları hələ XIX əsrə aid ədəbiyyatda təsvir olunmuşdur. Qalada vaxtilə ilxı və mal-qara saxlamaq, 600-ə qədər döyüşçünü öz atı və başqa hərbi sursatı ilə birlikdə yerləşdirmək mümkün idi. Qalanın üzərində müxtəlif yerlərdə 13-dən artıq hovuz qazılmış və daşların üzərində müxtəlif rəsmlər həkk olunmuşdur.

Arxeoloqlar burada boyalarla çəkilmiş təsvirlər – quş, ceyran, maral, ilan, balıq və digər heyvanların rəsmlərini tapmışlar. Burada tapılan saxsı qabların üzəri həndəsi fiqurlarla bəzədilmişdir. Qala ərazisindən tapılmış yüksəkkeyfiyyətli seladon saxsı qab parçası nəzəri cəlb edir. Tədqiqatçılara görə, seladon qablar Azərbaycana Böyük İpək Yolu vasitəsilə Çindən gətirilirdi. Azərbaycan Atabəyləri – Eldənizlərin hökmranlığı dövründə Əlincəqalanın əhəmiyyəti xüsusilə artmış, mühüm hərbi istehkam olan qala hökmdar ailəsinin təhlükəsizliyini təmin etmək üçün sığınacaq yerinə çevrilmişdi. Naxçıvan hakimi Zahidə xatının iqamətgahı da Əlincəqalada yerləşirdi. Əlincəqala XIII-XIV əsrlərdə Hülakülərin, XIV əsrin 2-ci yarısında Cəlairilərin hakimiyyəti altında olmuşdur. Cəlairilərin sultanı Əhməd Əmir Teymurun gəlişini eşitdikdən sonra ailəsini Əlincəqalada yerləşdirərək özü Bağdada gedir. Həmin vaxt qalada 300-ə yaxın döyüşçü olub. Əmir Teymur 1386-1401-ci illərdə Əlincəqalaya 4 dəfə yürüş etmişdir. İlk hücumda Əmir Teymurun oğlu Miranşah qalanı mühasirəyə almış və qala ətrafında şiddətli müharibə baş vermişdir. Qalanın müdafiəçiləri su çatışmazlığı səbəbindən qalanı təhvil verməyə məcbur olmuşlar . Qalanı təhvilvermə zamanı qəfildən yağış yağmağa başlamışdır və müdafiəçilər qalanı yenidən qorumağı qərara almışlar.

1397-ci ildə Şəki və gürcü qoşun birləşmələri Əlincəqalaya hücum edir və teymuri sərkərdəsi Sultan Səncəri məğlubiyyətə uğradaraq Sultan Tahiri mühasirədən çıxarıb Bağdada göndərirlər. Qalanın müdafiəsinə bir müddət Seyid Əli, Hacı Saleh və 3 gürcü sərkərdəsi başçılıq edir. Əlincəqala Əmir Teymuru çox narahat edirdi. 1405-ci ilə qədər Teymurun rəhbərliyi ilə Əlincəqalaya 5-6 əmirin başçılığı ilə qoşun hissələri göndərilir. XV əsrin əvvəllərində Əlincəqala Cəlairilərin, sonralar isə Qaraqoyunluların nəzarətinə keçir. Qardaşı Cahanşahla hakimiyyət uğrunda mübarizə aparan Qaraqoyunlu hökmdarı İsgəndər Əlincəqalaya sığınmışdı. İsgəndər oğlu Qubad Mirzə tərəfindən öldürüldükdən sonra Cahanşah Əlincəqalanı ələ keçirir. Bir müddət Ağqoyunluların, sonralar isə Səfəvilərin hakimiyyətində olan Əlincəqala feodal çəkişmələri və müharibələr nəticəsində dağılır.

Tarixlə maraqlananlardan Azərbaycana səfər edənlər üçün Əlincə qalası 2 min il oynadığı strateji rola görə çox təsiredici bir yerdir. İndiki Azərbaycan hakimiyyəti Əlincəqalanın və dünya tarixində xüsusi yer qazanmış arxeoloji və tarixi abidələrin qorunmasına xüsusi diqqət yetirir. Əlbəttə ki, Əlincəqala Avroasiyanın mədəni irsi üçün mühüm bir qaladır.

**Peter TASE**
***Amerika Birləşmiş Ştatları***
***“Foreign policy news” qəzeti***
***21 aprel 2015-ci il***

*Cəmşid Naxçıvanski – 120*

## Görkəmli sərkərdənin 120 illik yubileyi qeyd edilib

**Dünən Heydər Əliyev adına Hərbi Liseyin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Qarnizonunun Zabitlər evində hərb tariximizin tanınmış simalarından olan Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illik yubileyi münasibətilə tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə müavini, polkovnik Azad Cəfərov açaraq bildirib ki, görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib. Tədbirlər planına əsasən, muxtar respublikada hərb tariximizin unudulmaz simalarından olan Cəmşid Naxçıvanskinin 120 illik yubiley tədbirləri keçirilir. Bu gün Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının iştirakı ilə keçirilən yubiley tədbiri də bu qəbildəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev bildirib ki, hərb tariximizin yetirdiyi görkəmli şəxsiyyətlər sırasında Naxçıvanskilərin öz yeri var. Kəngərlilər nəslinin davamçılarından olan Naxçıvanskilər həm dövlətçilik, həm də hərbi sahədə mühüm xidmətlər göstərərək adlarını milli tariximizin səhifələrinə yazdırıblar. Onlardan biri də sonuncu Kəngərli generalı Cəmşid Naxçıvanskidir. Cəmşid Naxçıvanskinin ömür yolu bu gün gənclərimiz, eyni zamanda hərb peşəsinin incəliklərini öyrənən kursantlarımız üçün əsl nümunədir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev çıxış edərək bildirib ki, Cəmşid xan Naxçıvanski 1895-ci ildə anadan olub. O, 12 yaşınadək evdə və Naxçıvan şəhər qəza məktəbində təhsil alıb. Onun mənsub olduğu Kəngərli tayfasının əksəriyyətinin hərbçi, xüsusilə süvari döyüşçü olması, həmçinin atası Cəfərqulu xanın və əmilərinin adlı-sanlı hərbçi sərkərdələr kimi tanınmaları onu Tiflisdəki hərbi məktəbə – kadet korpusa gətirib çıxarıb. 1914-cü ilin martında Cəmşid xan Tiflis Kadet Korpusunda yeddiillik təhsilini başa vurub. 1914-cü il avqustun 1-də Yelizavetqrad Süvari Hərbi Məktəbinə gələn Cəmşid xan həmin məktəbə oxumağa qəbul edilib. O, 1915-ci ilin mart ayında tatar (azərbaycanlı) süvari polkunda həqiqi hərbi xidmətə başlayıb. 1920-ci ildə Cəmşid xan ikinci Qarabağ süvari polkunun komandiri təyin edilib. Ona böyük bir riskli iş tapşırılır: Qarabağdakı Əsgəran qalasını erməni daşnaklarından təmizləmək. O, aprel ayının 12-dək Ağdamı və Xankəndini, eləcə də Şuşanı erməni quldurlarından təmizləyib. Cəmşid xan Naxçıvanski 1921-ci ildə Azərbaycanın ilk milli atıcı diviziyasını yaradıb və həmin diviziyaya komandir təyin olunub.

Qeyd olunub ki, 1923-cü ildə Moskvadakı fəhlə-kəndli ordusunun Hərbi Akademiyasına birillik kursa oxumağa göndərilən Cəmşid xan yenidən Bakıya qayıdıb atıcı diviziyasına komandirlik edib. 1931-ci ildən isə M.V.Frunze adına Hərbi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirib. Sonra isə həmin akademiyanın ikinci kurs rəisi kimi yüksək vəzifədə çalışıb. Lakin ötən əsrin 30-cu illərinin repressiya burulğanı Cəmşid Naxçıvanskidən də yan keçməyib. 1938-ci ildə antisovet millətçisi, sovet hökumətinin düşməni kimi qondarma ittihamlarla həbs edilərək güllələnib.

Vurğulanıb ki, görkəmli hərb xadiminin adı xalqına ulu öndərimiz Heydər Əliyev tərəfindən qaytarılıb. 1971-ci ildə Moskvanın əsassız cəhdlərinə baxmayaraq, Bakı şəhərində respublika hərbi təyinatli orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbdə əbədiləşdirilib. Sonralar bu məktəb hərbi liseyə çevrilib. Böyük sərkərdənin adına indi ölkəmizdə hərbi lisey, ev-muzeyi və tam orta məktəb var.

Sonra kursantlar Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinə həsr olunmuş filmə baxıblar.

**Səbuhi HƏSƏNOV**

*Əziz Şərif – 120*

# Əziz Şərifin Mirzə Cəlil sevgisi



*Əziz Şərifin 13-14 yaşlarından yazmağa başladığı möhtəşəm gündəliklərində naxçıvanlı Qurbanəli Şərifzadənin oğluna əsl sənətkar tərcümeyi-halı hazırlamış zamanın nəhəng obrazı var. Belə bir tərcümeyi-halla Əziz Şərifin, Əziz Şəriflə ədəbi düşüncəmizin bəxti gətirmişdi.*

Atası milli intibah yaradıcı tale sahibi idi. "O, məktəb görməmişdi, fəqət həvəskar bir alim idi, böyük bir müəllim idi, camaat müəllimi idi, həm də müəllimlərdən fəzlə məlumata malik idi. Onda son dərəcə böyük bir istedad və məziyyət var idi". Hüseyn Cavidin bu fikirlərinə Firidun bəy Köçərli də qoşulurdu: "Millətimizin ruhu, həyatı, səadəti və mənəvi varlığı Şərifzadənin şərif vücudunda müşahidə olunmaqda idi".

Mirzə Cəlil isə "hamıdan çox istədiyim Qurbanəli" adlandırdığı Qurbanəli Şərifzadəyə 1914-cü ilin 26 yanvarında yazırdı: "Tiflisdə bir qəzet çıxardaram sədə türk dilində, çünki sən də gərək təsdiq edəsən ki, indi Qafqazda bizim qəzetimiz yoxdur, hər nə də ki var, bizim deyil".

Heç şübhəsiz ki, Mirzə Cəlil belə bir ağrılı məsələdən milli təəssübkeşliyinə ürəkdən inandığı şəxsiyyətlə dərdləşə bilərdi. Qurbanəli Şərifzadənin isə həm "Molla Nəsrəddin"ə bağlılığı, həm də "Füyuzat"ın hər nömrəsini ilk səhifədən son sətrinə qədər oxuması onun milli bitkinliyindən və yetkinliyindən soraq verirdi. Bütün bunlar isə Əziz Şərifin gözləri qarşısında olmuşdu və təbii ki, sonralar düz 70 il sovet vulqar sosioloqlarının "Molla Nəsrəddin"lə "Füyuzat"ı düşmən cəbhələr kimi təqdim etmələrinə o, heç vaxt tərəfdar ola bilməzdi. Ona məlum idi ki, "Molla Nəsrəddin" və "Füyuzat"ı üz-üzə qoymaqla yad rejim milli düşüncəmizi parçalamaq qəsdindədir. Elə bilirik ki, Əziz Şərifin ədəbi platformasında bu cür hadisələr mühüm qaynaqlar kimi dəyərləndirilməlidir.

Əziz Şərifin xatirələrində "biz hamımız "Molla Nəsrəddin"in sadiq "müridləri" idik" yazması ədəbi taleyinin tərcümeyi-halı ilə möhkəm bağlılığının ifadəsi idi. Bəllidir ki, 1904-cü ilin dekabrında Cəlil Məmmədquluzadə azərbaycanlı balalarını gimnaziyaya hazırlaşdırmaq üçün Tiflisdə xüsusi pansion açmış, bu pansion 1905-ci ildə ermənilərin qanlı qırğınlar törətdiyi vaxta qədər fəaliyyət göstərmişdir. Mirzə Cəlilin məsləhəti ilə Qurbanəli Şərifzadə oğlu Əzizi də bu pansiona gətirmişdir.

Pansionda on-on iki uşaq yaşayırdı. Burda Mirzə Cəlil özü rus dilindən, Ömər Faiq Azərbaycan dilindən dərs deyir, bir rus qadın müəlliməsi də onlarla məşğul olurdu.

Mirzə Cəlil şəxsiyyəti Əziz Şərif üçün örnək idi, mürşid-mürid münasibətlərinin "Molla Nəsrəddin"sayaq modeli idi. Burda hadisələri də Molla Nəsrəddinçi əhval-ruhiyyə müəyyənləşdirirdi.

1905-ci ilin 22 aprelində Mirzə Cəlil Qurbanəli Şərifzadəyə yazır: "Əzizdən heç nigaran olma, Əziz burda dərs oxuyub axıra kimi elm təhsil edəcək. Hər halda indi Əzizin sənə heç bir ehtiyaclığı yoxdur və onun barəsində heç fikir eləmə. Bu günlərdə onun metrik şəhadətnaməsini şeyxülislam idarəsindən çıxardacağam ki, may ayında imtahana aparam". Tədqiqatlarda da deyildiyi kimi, böyük ədib doğma övladı kimi sevdiyi "qardaşoğlu" üçün əlindən gələni etdi. Onu "Molla Nəsrəddin"in 1910-cu il 16-cı nömrəsindəki "Naxçıvan. Molla Nəsrəddin baba" başlıqlı yazı ilə mətbuat aləminə də Mirzə Cəlil gətirdi. Əziz Şərif sonralar bunu ehtiramla xatırlayacaqdı: "O, mənim cızma-qaramı nizama salıb jurnalda çap etmişdi, dürüst adımı da yazmışdı". Ədəbiyyat aləminə Mirzə Cəlilin xeyir-duası ilə gəlməyi, heç şübhəsiz ki, Əziz Şərifin ən böyük xoşbəxtliyi idi.

Sonralar Qurbanəli Şərifzadə Əzizi yenə də Mirzə Cəlilin yanına gətirir, o, 1910-cu ilin yanvarından 1911-ci ilin iyun ayına qədər "Molla Nəsrəddin"in redaksiyasında yaşayır.

Söz deməyə utandığı, dərin hörmət bəslədiyi Mirzə Cəlil onun nəzərində çox nüfuzlu, cazibəli, fövqəladə bir şəxsiyyət idi.

Təbii ki, ustadın bu münasibətləri əsasında Əziz Şərifin ədəbi zövqü də formalaşdı, Mirzə Cəlil öz sadiq müridini, M.Cəfərin dediyi kimi, imtahana, həyata hazırladı.

Mirzə Cəlilin fikrincə, qaldırdığı hər bir məsələdən "qan qoxusu" gələn Mirzə Fətəli haqqında hər şeyi olduğu kimi yazmaq lazım idi. Əziz Şərif öz ustadından aldığı bu dərsi, yəqin ki, öz ədəbi manifesti kimi dəyərləndirə bilmişdi. Nəticədə, o, 1926-1938-ci illərdə Mirzə Fətəli ilə bağlı çoxlu tədqiqatlar aparmaqla ustadına sədaqətini sübut etdi.

Sabir yaradıcılığına ilk ən dəqiq, yüksək qiymət verən də, onun yolunda hər cür cəfalar çəkən də, "ari-zi-qəmlər əlindən ürəyi şişən" bu nurlu şairi Molla Nəsrəddinçilik statusuna yetirən də Mirzə Cəlil idi. Sabir şeiri hər babətdən Mirzə Cəlil ruhuna, zövqünə yaxın idi, doğma idi.

"Molla Nəsrəddin" jurnalından mənə ən parlaq və unudulmaz bir xatirə qalmışdır ki, o da 1911-ci ilin baharında böyük Sabirin Tiflisə gəlib bir müddət Cəlil Məmmədquluzadənin mənzilində olmasıdır", – deyən Əziz Şərifin sonralar Sabir yaradıcılığını tədqiq etməklə ustadı Mirzə Cəlil qarşısında sanki hesabat verdi.

"Molla Nəsrəddin" cazibəsində yaşayan Əbdürrəhim bəy Haqverdiyev Mirzə Cəlilin əqidə dostu idi. Əziz Şərifin Ə.Haqverdiyevin dramaturgiyasından namizədlik dissertasiyası yazması da bu yönümdən çox mənalı, əhəmiyyətli idi. Fikrimizcə, bu, birbaşa Mirzə Cəlil sevgisinə hesablanmışdı.

Əziz Şərifin uzun illər öz ustadının həyatı, yaradıcılığı ilə bağlı tədqiqatları, ədibin bəzi əsərlərini tapıb üzə çıxarması, nəhayət, doktorluq dissertasiyası onun Mirzə Cəlilə böyük məhəbbətinin, sonsuz ehtiramının ifadəsi idi. Fikrimizcə, Əziz Şərifin yaradıcılığından danışarkən bütün bunlara tərcümeyi-hal faktlarından yanaşmaq çox zəruridir.

Əziz Şərif 1912-ci ildə Mirzə Cəlilin Qurbanəli Şərifzadəyə yazdığı bu sözləri tez-tez xatırlamışdı: "Bu kitabı mən verirəm hamıdan çox istədiyim Qurbanəliyə ki, bizlər də öləb gedəndən sonra onun oğlanları bizim dostluğumuzu bu kitabı açan vaxt yada salsınlar".

Eləcə də 1914-cü ildə Mirzə Cəlil Qurbanəliyə məktubunda yazır ki, mən Tiflisdə olanda Əzizi çağırdım bizə və danışdıq. Mənə söz veribdir ki, gələcəkdə bizi şad eləsin. Bu vaxt Əziz Şərifin 19 yaşı vardı. Öz xatirələrində dəfələrlə bu məktubun üstünə qayıdan Əziz Şərif xatırlayır ki, Mirzə Cəlillə onun belə bir görüşü də, söhbəti də olmayıb. Ömründə dilinə yalan söz gəlməyən, öz həqiqətpərəstliyi ilə həm dostlar və həm də çoxlu düşmənlər qazanan böyük Mirzə Cəlilin Qurbanəli Şərifzadəyə nə üçün belə yazmasının səbəblərini üzə çıxarmağa çalışan Əziz Şərifin taleyində, göründüyü kimi, Mirzə Cəlilin "müqəddəs yalanı" da mühüm rol oynayır, eləcə də Qurbanəlinin nigarançılığına, narahatlığına son qoyur. Təbii ki, nəhəng və qüdrətli ustad həmişə öz müridinə nümunə göstərdi, müridin ədəbi şəxsiyyətinin formalaşması üçün çox münbit mühit yaratdı.

**Rafiq BABAYEV**
***filologiya üzrə fəlsəfə doktoru***

# Şagirdlər arasında yaz mövsümünün kompleks tibbi müayinələri başa çatıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakterli daşıyan dərin tibbi yoxlamalar aparılır. Ötən il payız mövsümünün kütləvi profilaktik müayinələri muxtar respublikanın bütün təhsil müəssisələrini əhatə edib, 43 min 589 uşaq kompleks tibbi müayinədən keçib, 4 min 73 uşaq göz, stomatoloji, nevroloji, cərrahi, dəri-zöhrəvi və digər xəstəliklərin ilkin əlamətlərinə görə əlavə və təkrar yoxlanmalar üçün xəstəxanaya – stasionara dəvət edilib. Sonrakı mərhələdə müayinələr zamanı ehtiyac olan hallarda xəstə uşaqların daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, zəruri hallarda isə stasionar müalicəsi təşkil olunub.

Cari ildə şagirdlər arasında yaz mövsümünün dərin tibbi yoxlamaları aprelin 28-də başa çatıb. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən şəhər məktəblərində müayinənin təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunub, məktəblərdə işləyən həkim və tibb bacıları xəstəxananın Poliklinika şöbəsinə dəvət edilərək keçiriləcək tədbir, xüsusən dispanserizasiya haqqında təlimatlandırılıblar. LOR, oftalmoloq, endokrinoloq, nevropatoloq, cərrah, pediatr, stomatoloq, dermatoloq, ortoped və digər ixtisaslı mütəxəssislərdən təşkil olunmuş həkim briqadası Naxçıvan şəhərinin 20 tam orta məktəbində 10 min 541 şagirdi tibbi yoxlamadan keçirib ki, bu da şəhər məktəblilərinin 97 faizini təşkil edir. 1008 oftalmoloji, 491 LOR, 213 nevroloji, 155 cərrahi, 55 dermato-venerolojі, 201 endokrinoloji, 181 pediatrik xəstəliyə meyilli uşaqlar dispanser qeydiyyatına götürülərək göstəriş əsasında stasionar müalicəyə göndərilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Dünən Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə 1941-1945-ci illər müharibəsi veteranları ilə görüş keçirilib.***

*Qələbə – 70*

# Veteranlarla görüş



Tədbirdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, şuranın sədr müavini Heydər Heydərov, şuranın Naxçıvan şəhər təşkilatının sədri Firudin Süleymanov iştirak ediblər.

Tədbiri məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açaraq 1941-1945-ci illər müharibəsində alman faşizminə qarşı mübarizədə qəhrəmanlıq göstərmiş azərbaycanlıların şücaətindən bəhs edib. Bildirilib ki, 70 illik yubileyi qeyd edilən tarixi qələbənin qazanılmasında iştirak etmiş naxçıvanlıların keçdiyi döyüş yolu, onların qəhrəmanlığı dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Sonra müharibə veteranları Qara Fərzəliyev və Heydər Heydərov çıxış edərək müharibənin çətin günlərindən, müxtəlif cəbhələrdə iştirakçıları olduqları döyüş xatirələrindən danışıblar. Qələbənin qazanılmasında Azərbaycan diviziyalarının böyük şücaət göstərdiklərini qeyd edən veteranlar 1941-1945-ci illər müharibəsi veteranlarına dövlətimiz tərəfindən hər zaman diqqət və qayğı göstərildiyini vurğulayıblar.

Bildirilib ki, belə tədbirlərin keçirilməsi qanlı müharibədə iştirak etmiş 30 mindən çox naxçıvanlının qəhrəmanlığına verilən yüksək qiymətdir. Muxtar respublikada gənclərin qəhrəmanlıq ruhunda tərbiyəsi baxımından bu cür tədbirlərin keçirilməsi olduqca əhəmiyyətlidir.

Sonda məktəbin direktoru Namiq Məmmədov görüşə gəldikləri üçün veteranlara minnətdarlığını bildirib, onları qələbənin ildönümü münasibətilə təbrik edib.

**Xəbərlər şöbəsi**

## Turnirdə 100-dən çox güləşçi mübarizə aparıb

Babək rayon Nehrəm kənd 3 nömrəli tam orta məktəbdə Babək Rayon İcra Hakimiyyəti, rayon Gənclər və İdman İdarəsi, Uşaq-gənclər idman məktəbi və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının Babək rayon bölməsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş rayon məktəbliləri arasında sərbəst güləş üzrə turnir keçirilib. Turnirdə 6 komandada 100-dən çox güləşçi mübarizə aparıb.

Babək Rayon Uşaq-gənclər idman məktəbinin direktoru Füzuli Salmanlı, Güləş Federasiyasının Babək rayon bölməsinin sədri Kamil Kazımov və rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlı çıxış edərək Naxçıvan Muxtar Respublikasında idmana göstərilən diqqət və qayğıdan bəhs edib, idmançılara uğurlar arzulayıblar.

Yekun nəticəyə əsasən, "Nehrəm" komandası turnirin qalibi olub. İkinci yerə "Zeynəddin", üçüncü yerə isə "Cəhri" komandaları layiq görülüblər.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

## Yüngül atletika üzrə yarış keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi, rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yüngül Atletika Federasiyasının Şahbuz rayon bölməsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş ümumtəhsil məktəblərinin qız şagirdləri arasında yüngül atletika üzrə rayon birinciliyi keçirilib.

Yarışın açılış mərasimində rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov və Təhsil Şöbəsinin əməkdaşı Fikrət Cəfərov çıxış edərək ümummilli lider Heydər Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğıdan bəhs ediblər. Bildirilib ki, ulu öndərin müəyyənləşdirdiyi idman siyasəti bu gün uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Azərbaycan idman ölkəsi kimi tanınır.

Yarışın reqlamentinə gəlincə, komanda və şəxsi hesablı birincilikdə 100, 200, 400, 800 metr məsafələrdə atletlər öz qüvvələrini sınayıblar. 19 məktəbdən 80 nəfərdən çox atletin iştirak etdiyi birinciliyin sonunda, müvafiq olaraq, Səmənngül İsmayılova, Nərmin Rüstəmli, Sahilə Novruzova və Mədinə İbrahimova qət etdikləri məsafələrdə bütün rəqiblərinə qalib gəliblər. Komanda hesabında isə Aşağı Qışlaq kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Biçənək kənd tam orta məktəbinin komandası ikinci, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin komandası isə üçüncü olub.

Qalib atletlər və komandalar təşkilatçıların diplom və hədiyyələri ilə mükafatlandırılıblar.

## Beynəlxalq turnirdə uğurlu çıxış

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri ötən həftə Ağdam Olimpiya-İdman Kompleksində keçirilən beynəlxalq turnirdə uğur qazanıblar. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş universal döyüş növləri üzrə beynəlxalq turnirə 2 idmançımız yollanıb. Məşqçi Cavid Məmmədovun rəhbərliyi ilə Ağdama yollanan idmançılarımızın hər ikisi mükafatçılar sırasına düşməyi bacarıb. Belə ki, 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Elxan Həsənəliyev yarımfinal mərhələsinə kimi qələbə ilə irəliləsə də, həlledici görüşdə iştirak edə bilməyib və turniri üçüncü pillədə başa vurub. Elə 85 kiloqram çəkidə rinqə çıxan Xəyal Abdullayev də bu uğuru təkrarlayıb.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Əhmədov Vüsal Afiyət oğlunun adına olan 1051892 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 344